# İnkişafa, tərəqqiyə, təhlükəsizliyə verdiyimiz səsin əks-sədası Şuşadan gəldi...

***Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm... Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən 18 aprel 2018-ci il***



***Azərbaycan xalqının 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində nümayiş etdirdiyi mütəşəkkillik, qətiyyət və iradə haqqında söz açarkən, amerikalı sahibkar, xeyriyyəçi və ictimai fəal Con Devison Rokfellerin məşhur ifadələrindən biri yada düşür: "Sizin gələcək rifahınız öz verdiyiniz qərarlardan asılıdır". Bəli, xalqımız həmin tarixdə dördüncü dəfə öz sözünü dedi və gələcək rifahını təmin elədi. Ancaq təkcə rifahınımı? Əsla yox! Həmin seçkilərdən sonra biz ərazi bütövlüyümüzü bərpa etdik və əsrlərdən bəri düşmənçilik gördüyümüz bədxah qonşularımıza layiq olduqları yeri göstərdik.***

Brayan Mir adlı bur avropalı sosioloq yazır ki, dünyada hər il yüzlərlə seçki keçirilir. Həmin seçkilərin 98-99 faizi tarixdə adi səsvermə faktı kimi qalır. Hansısa xalqın və ya dövlətin həyatında taleyüklü dönüşə, xilasa və möhtəşəm perspektiv yaradılmasına səbəb olan azsaylı seçkilər də var ki, onlar tarixdə mühüm, əlamətdar hadisə kimi qalır. Məsələyə bu prizmadan baxsaq, görərik ki, xalqımızın bəxti son otuz ildə bir neçə dəfə gətirib. 1993-cü ilin oktyabrında – xilaskar ümummilli lider Heydər Əliyevin Azərbaycan Prezidenti seçildiyi gün də, 2003-cü ilin oktyabrında xalqın İlham Əliyevə səs verdiyi seçki də, 2018-ci ilin aprelində ölkəmizdə reallaşdırılan növbədənkənar prezident seçkisi də məhz milli tariximizə sadə bir fakt kimi deyil, əlamətdar hadisə kimi düşmüşdür.

Xalq 2018-ci ilin aprelində nə üçün yenə də İlham Əliyevi dəstəklədi? Bu sualın cavabını dövlət başçımız həmin seçkidən sonra keçirilən andiçmə mərasimindəki nitqində vermişdi: "Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır".

Doğrudan da, BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar həmin müddətdə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu da münaqişənin həlli üçün hüquqi baza yaradırdı.

Bəs 2018-ci ildəki 11 aprel seçkilərindəın sonra hansı uğurların şahidi olduq? Bu sualın cavabını isə dövlət başçımızın xalqa 10 noyabr 2020-ci il tarixli müraciətində, düşmənin kapitulyasiya aktını imzalaması müjdəsini verərkən söylədiyi fikirlərdə tapırıq. Prezident İlham Əliyev demişdir ki, bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.

Doğrudan da, həmin bəyanatdan əvvəlki gün – noyabrın 9-da Azərbaycan Ordusu 72 yaşayış məntəqəsini işğalçılardan azad etmişdi. Şuşanın azad edilməsi və sentyabrın 27-dən həmin günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun beli qırılmışdı. Odur ki, həmin gün imzalanan bəyanat uzun illər davam edən işğala son qoyurdu. O bəyanat imkan verirdi ki, hələ də işğal altında olan digər rayonlarımızı – Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Biz həmin uğurlara da imza atdıq. Prezident deyirdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və soruşurdu: "Bundan da böyük xoşbəxtlik ola bilərmi?!"

Ərazilərimizi bərpa etdik. Düşmənə layiq olduğu yeri göstərdik, beynəlxalq aləmdə formalaşdırılmış erməni miflərini köhnə kağız parçası kimi tarixin zibilliyinə atdıq. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrini öz gücümüzə həyata keçirdik. Dünyadakı ikili standart müəlliflərinə Azərbaycan reallıqlarının mənasını izah etdik, dostlarımızın sayı çoxaldı, inkişafımızın yeni dövrü başlandı, vəhşi tayfaların faşıstdən betər əməlləri nəticəsində viranəyə çevrilmiş ərazilərimizdə möhtəşəm bərpa-quruculuq prosesinə start verildi. Biz bütün bu proseslərin hamısında qardaş Türkiyə Cümhuriyyətini yanımızda gördük.

Prezident İlham Əliyev bütün bunlar barədə müxtəlif tədbirlərdə olduqca sadə və əsaslandırılmış fikirlər səsləndirib. Məsələn, ötən il oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etmişdilər.

O zaman dövlət başçımız demişdi: "Bu gün regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Əziz qardaşımın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrilib və heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz. Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən lider bu gün buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir!"

Bəli, xalqımız 11 aprel 2018-ci il prezident seçkilərinin dörd illiyini məlum 10 noyabr üçtərəfli Bəyanat, Azərbaycanla Türkiyə arasında imzalanmış "Şuşa Bəyannaməsi", Avropa İttifaqı ilə əməkdaşlığın intensivləşməsi, Rusiya Federasiyası ilə imzaladığımız Müttəfiqlik fəaliyyəti haqqında müqavilə, Brüssel görüşləri, eləcə də müxtəlif beynəlxalq təşkilatlarda sədrliyimizin davam etməsi fonunda qeyd edir.

Bunlar isə 2018-ci ilin aprel seçkilərində verdiyimiz səsin Şuşadan qayıdan əks-sədası kimi qiymətləndirilir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***